# Prezidentin Budapeştdən verdiyi bəyanat uzaqgörən siyasətin davamıdır

**Prezident İlham Əliyevin Macarıstana işgüzar səfəri zamanı mətbuata verdiyi bəyanat Azərbaycanın 44 günlük Vətən müharibəsində və sonrakı sülh prosesində tutduğu mövqeyə dair mühüm məqamları bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Prezidentin çıxışı yalnız Azərbaycanın uğurlarının təkrar xatırladılması ilə deyil, həm də regionun gələcək geosiyasi nizamlanmasına dair Azərbaycanın mövqeyinin prinsipial şəkildə ortaya qoyulması ilə bağlı idi.**

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev Azərbaycanın öz ərazisində apardığı müharibə nəticəsində 30 illik işğala son qoyarkən beynəlxalq hüquq çərçivəsində, xüsusilə də BMT Nizamnaməsinin 51-ci maddəsinə əsaslanaraq özünümüdafiə hüququndan istifadə etdiyini xatırladıb. Bu müddəa hər bir dövlətin silahlı hücuma məruz qaldıqda özünü müdafiə etmək hüququnu tanıyır və Azərbaycanın Qarabağda apardığı hərbi əməliyyatlar da bu hüququn təzahürü kimi təqdim olunur.

Siyasətçi qeyd edib ki, müharibə dövründə Azərbaycanın müasir texnologiyalara əsaslanan döyüş taktikası, yüksək peşəkarlıqla hazırlanmış ordusunun gücü və daxili ictimai həmrəyliyin nəticəsində 44 gün ərzində 300-dən çox yaşayış məntəqəsi azad olunub: "Bu zaman Azərbaycan Ordusunda heç bir fərarilik halı qeydə alınmadığı halda Ermənistan tərəfinin rəsmi etirafına görə, 12 mindən çox fərari ordudan qaçdı. Azərbaycan yalnız hərbi yox, həm də diplomatik qələbə qazandı. Müharibədən sonra 2023-cü ilin sentyabrında keçirilən lokal antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyi tam bərpa olundu və qondarma qurumun ləğvi ilə nəticələndi. Bu, Azərbaycanın ərazi bütövlüyünün faktiki və hüquqi baxımdan tam bərpa edilməsi demək idi. Hazırda Azərbaycanın dövlət orqanları, qanunları və hüquqi yurisdiksiyası ölkənin bütün ərazisində, o cümlədən keçmiş münaqişə zonalarında tətbiq olunur".

Prezident İlham Əliyev Macarıstanda sülh prosesinin təşəbbüskarının Azərbaycan olduğunu və 2021-ci ildən başlayaraq Ermənistanla sülh müqaviləsinin bağlanması üçün təkliflər irəli sürdüyünü bəyan edib. Bu barədə danışan P.Vəliyeva bildirib ki, Azərbaycanın təqdim etdiyi 5 prinsip - dövlətlərin qarşılıqlı ərazi bütövlüyünün tanınması, bir-birinin suverenliyinə hörmət, sərhədlərin delimitasiyası və kommunikasiya xətlərinin açılması kimi məsələlər bu gün artıq Ermənistan tərəfindən də qəbul edilib. Lakin iki mühüm məsələ hələ də açıq qalır. Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları var. Bu isə sülh üçün əngəl yaradır. ATƏT-in



Minsk qrupunun de-yure ləğvi - artıq fəaliyyəti olmayan bu qurumun de-fakto ləğv olunmasını da tələb edir. Minsk qrupunun fəaliyyəti illər ərzində nəticəsiz qalıb və münaqişənin dondurulmasına xidmət edib. Prezident İlham Əliyevin bildirdiyi kimi, bu qrupun formal mövcudluğu belə münaqişənin bitdiyini rəsmiləşdirməyə mane ola bilər.

Deputat Prezidentin fikirlərinə istinad edərək bildirib ki, Azərbaycan regionda sülhün, əməkdaşlığın və inkişafın təminatçısı rolunu oynamağa hazırdır. Postmüharibə dövründə Azərbaycan tərəfindən təqdim edilən Zəngəzur dəhlizi region ölkələrinin nəqliyyat infrastrukturlarının birləşdirilməsi və iqtisadi əməkdaşlıq üçün mühüm layihə kimi təklif olunur. Bu layihə təkcə Ermənistan üçün deyil, Türkiyə, İran, Rusiya və Mərkəzi Asiya ölkələri üçün də logistik üstünlüklər vəd edir.

P.Vəliyeva qeyd edib ki, Prezident İlham Əliyevin Macarıstanda verdiyi bəyanat Azərbaycanın müharibə dövründə və sonrasında tutduğu prinsipial, hüquqa əsaslanan və uzaqgörən siyasətinin davamıdır. Sülh üçün real və hüquqi əsaslar ortadadır, sadəcə Ermənistandan siyasi iradə və məsuliyyətli yanaşma tələb olunur.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 23 may (№ 106).- S.8.